AZƏRBAYCAN RESPUBLİKASI İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ



# DÖVLƏT SATINALMALARI



| | Əvvəl | İndi |
|---|---|---|
| Günlərin sayı | 53 | 31 |
| Xərc | 1-5 % | 1 %-dək |

## 1. Dövlət satınalmalarının planlaşdırılması

**İndi:**

Satınalan təşkilat satınalma planını hazırlayaraq təsdiq edir və dövlət satınalmalarının vahid internet portalında yerləşdirir.

## 2. Satınalan təşkilat tərəfindən tenderin elan olunması və tender təklifinin qəbul olunması

**Əvvəl:**

Açıq tenderin keçirilməsi barədə elan tender zərflərinin açılması günündən azı **30 bank günü** əvvəl rəsmi mətbuatda və internet saytında yerləşdirilir;

Tender üzrə məlumat mübadiləsi (sorğuların, müraciət, şikayət və s.) **kağız daşıyıcısında** aparılır;

Tender təklifinin **kağız daşıyıcıları** formasında təqdim olunur;

Satınalan təşkilat tender təklifinin təminatını tender təklifinin ümumi qiymətinin **1–5 faizinədək** məbləğdə müəyyənləşdirir.

30

**İndi:**

Satınalan təşkilat satınalma planını hazırlayaraq təsdiq edir və dövlət satınalmalarının **vahid internet portalında** yerləşdirir;

Tender elan təkliflərinin qiymətləndiriləcəyi gündən **ən az 20 bank günü** əvvəl vahid internet portalı vasitəsilə dərc olunur;

20

Qeydiyyatdan keçən hər bir malgöndərənə (podratçıya) dövlət satınalmalarının **vahid internet portalı vasitəsilə bu barədə real vaxt rejimində** təsdiq bildirişi göndərilir;

Satınalan təşkilat ilə malgöndərən (podratçı) arasında qarşılıqlı məlumat mübadiləsi və sənədlərin təqdim olunması **vahid internet portalı vasitəsilə** aparılır;

Tender üzrə iştirak haqqı və tender təklifi **vahid internet portalı vasitəsilə** təqdim olunur;

Tender komissiyasının iclasları **virtual şəkildə** təşkili edilir;

Satınalan təşkilat tender təklifinin təminatını tender təklifinin ümumi **qiymətinin 1 faizinədək** məbləğdə müəyyən edir və həmin təminatı vahid internet portalı vasitəsilə qəbul edə bilər.

VAHİD İNTERNET PORTALI

## 3. Tender üzrə qalibin müəyyən olunması və müqavilənin bağlanılması

**Əvvəl:**

Tender təkliflərinin açılması müddəti tenderin əsas **şərtlər toplusunda** müəyyən olunur;

Tenderin qalibi ilə tenderin satınalma müqaviləsi **əsas şərtlər toplusunda göstərilmiş müddət ərzində kağız daşıyıcıda** imzalanır.

**İndi:**

**Vahid internet portalı** təklifləri qiymət ardıcıllığına uyğun olaraq avtomatik müəyyən edir və qərar qəbul edilməsi üçün elektron qaydada tender komissiyasına göndərir;

Tender komissiyası **1 (bir) bank günü** ərzində qərar qəbul edir və qərarı həmin gün vahid internet portalında yerləşdirir;

Satınalma müqaviləsi tenderin qalibi ilə vahid internet portalı vasitəsilə **elektron qaydada** bağlanır.

## 4. Malgöndərənlərin şikayətlərinə baxılma

**Əvvəl:**

Satınalan təşkilata və satınalma üzrə dövlət siyasətini həyata keçirən orqana malgöndərənlər tərtəfindən olunan şikayətə **20 bank günü** müddətində baxılır;

Qərar **3 bank günü** keçənədək kağız daşıyıcısında təqdim olunur.

**İndi:**

Satınalan təşkilata və satınalma üzrə dövlət siyasətini həyata keçirən dövlət orqanına malgöndərənlər tərəfindən edilən şikayətlərə **10 bank günü** müddətində baxılır;

Qərar **1 bank günü** keçənədək vahid internet portalı vasitəsilə təqdim olunur.